Bir çoxları saqqal saxlayanlara müxtəlif adlar verməklə onlara ləkə yaxmaq istəyirlər. Lakin bilmək lazımdır ki, saqqal saxlamaq yalnız əhli sünnə kitablarında deyil hətta şiə kitablarında da mövcuddur.

Məsələn: Şiyələrin məşhur və mötəbər Müstədrək kitabında deyilir: "Saqqalı qırxmaq Allahın yaratdığını dəyişməkdir. Kim Allahın yaratdığını dəyişərsə Allah ona lənət etsin!" (bax: Müstədrək, cild-1, fəsil-40, səh-406, rəv- 1003).

Həmçinin tənə edilən məsələlərdən biri də paltarın qısa geyinilməsidir. Halbuki bu şiələrin mötəbər kitablarında da mövcuddur. Məsələn: Müstədrək kitabında müddəssir surəsinin 4-cü, "Paltarını təmizlə" ayəsinin təfsirində belə deyir: Ayənin mənası paltarı qısa geyinmək deməkdir. (Bax: Müstədrək, cild-3, fəsil- 3, səh- 238, rəv- 3475) (cild- 3, fəsil- 17, səh- 260, rəv- 3530). Həmçinin Biharul Ənvar adlı kitabda da deyilir: "Məhəmməd Ibn Əlidən (a.s.) müddəssir surəsinin 4-cü, "Paltarını təmizlə" ayəsi haqda soruşduqda belə cavab vermişdir: yəni paltarını qısalt. Sonra isə dedi: Paltarın topuqlarından aşağı düşməsin. Çünki paltarı topuqdan aşağı geyinmək Bənu Umeyyənin əməlindəndir" (Bax: Biharul Ənvar: cild- 83, səh- 260, rəv-10, fəsil- 6).

Əli (ə.s.) Məhəmmədə və Misir əhalisinə məktub yazır və həmin məktubda deyilir: "... Dəstəmaz namazın şərtidir. Dəstəmaz alarkən əllərini biləklərə qədər üç dəfə yu, ağzını üç dəfə yaxala, burnunu da üç dəfə yaxala. Sonra üzünü üç dəfə yu, sonra sağ qolu dirsəyə qədər üç dəfə yu, sonra sol qolu dirsəyə qədər üç dəfə yu, sonra başına məsh çək, sonra sağ ayağını üç dəfə və sonra sol ayağını da üç dəfə yu. Mən Peyğəmbəri (ona Allahın salavatı və salamı olsun) belə dəstəmaz alarkən görmüşəm..." (Bax: Müstədrək, cil-1, fəsil- 15, səh- 305, rəv-688). Biharul ənvar kitabının müəllifi Məclisi, Müstədrək kitabının müəllifi isə Təbərisidir. Hər iki alim şiələrin ən mötəbər alimlərindən sayılırlar.